**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ DEVİANT DAVRANIŞIN PROFİLAKTİKASI ÜZRƏ İŞİN PEDAQOJİ ƏSASLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Könül Hidayət qızı Cabbarova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor,
**Akif Nurağa oğlu Abbasov**

**Rəsmi opponentlər:** pedaqoji elmlər doktoru, professor
**Qasımova Ləzifə Nağı qızı**

pedaqogika üzrə elmlər doktoru, professor
**Əhmədov Hümeyir Hüseyn oğlu**

pedaqogika üzrə fəlsəfə doktoru,dosent
**Məmmədova Aytəkin Telman qızı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə Azərbaycan Respublikası özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İctimai həyatın bütün sahələrində həyata keçirilən köklü islahatlar nəticəsində dövlətimizin maddi-texniki bazası möhkəmlənmiş, ölkəmizdə nəzərəçarpacaq müsbət mütərəqqi dəyişikliklər baş vermiş, əhalinin yaşayış səviyyəsi xeyli yüksəlmişdir.

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, yeni inkişaf mərhələsinə keçid dövrüdə ictimai həyatda təzahür edən deviantogen amillərin təsiri nəticəsində insanlar cəmiyyətimizə xas olan bəzi mənəvi dəyərləri, norma və qaydaları itirmiş oldu. Məhz buna görə son illərdə gənclər arasında, həmçinin ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərində deviant davranış ünsürləri ictimai narahatlıq doğurmağa, deviant davranış problemləri həkimlər, sosioloqlar, sosial psixoloqlar və kriminoloqların diqqətini daha çox cəlb etməyə başlamışdır. Belə ki, mədəni baxımdan təqdirəlayiq təzahürlərin olması ilə yanaşı, son zamanlar xüsusilə yuxarı sinif şagirdləri arasında müşahidə olunan xoşagəlməz deviasiya hadisələri (zorakılıq, alkoqolizm, narkomaniya, özünəqəsd (suisid) və s.) cəmiyyətdə narahatlıq doğurur.

Məktəblilər, xüsusilə yuxarı sinif şagirdləri arasında deviant davranışın yayılması problemi cəmiyyətdə ciddi narahatlığa səbəb olub. Hazırda bu problemin qarşısının alınması və aradan qaldırılması üsullarını təkmilləşdirmək üçün hərtərəfli ictimai-mədəni təhlilə və real faktlara əsaslanan dərin elmi pedaqoji-psixoloji tədqiqatlara ehtiyac duyulur.

İctimai həyatın bütün sahələrində əsaslı dəyişikliklərin baş verdiyi və sosializm cəmiyyətinə xas olan köhnə davranış normalarının öz əhəmiyyətini itirdiyi müasir dövrdə bu problem ölkəmizdə xüsusi aktuallıq kəsb edir. Gözlənilənlərlə gerçəklik arasındakı uyğunsuzluq və ziddiyyət cəmiyyətdə ictimai gərginliyi artırır, insanları təsbit edilmiş normalardan kənara çıxmağa və müvafiq davranış modelini yaratmağa sövq edir. Beləliklə, kəskin ictimai-iqtisadi şəraitdə normaların özü də əhəmiyyətli dəyişikliklərə məruz qalır.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə sosiologiyada belə deviasiya deviant davranış kimi müəyyən edilir. Burada insanın hərəkətləri

cəmiyyətdə formalaşdırılmış müvafiq davranış normalarına, sosial gözləniltilərə uyğun gəlmir. Məhz buna görə də geniş mənada gənc nəsillərin tərbiyəsi haqqında elm sahəsi kimi müasir elmi pedaqogika ölkəmizin müstəqil inkişaf mərhələsində belə ictimai hadisələri, təzahürləri doğuran səbəbləri, şəraiti və amilləri araşdırmağı, aradan qaldırmağı ən aktual vəzifəyə çevirmişdir. Bu, orta və xüsusilə böyük məktəb yaşlı şagirdlər arasında deviant davranışın müxtəlif formalarının (alkoqolizm, intihar, cinayətkarlıq və s.) artması, onların bir-birini tamamlaması və qarşılıqlı asılılığı ilə bağlıdır. Yetkinlik yaşına çatmayanlar arasında bir çox cinayət növlərinin törədildiyi yaş həddinin azalması müşahidə olunur. Bu baxımdan problemin ciddi elmi-pedaqoji tədqiqata cəlb edilməsi, araşdırılması nəticəsində islah yolları, üsulları və təsir vasitələrinin müəyyənləşdirilməsi çox böyük ictimai-siyasi əhəmiyyət kəsb edir.

Deviant davranış problemi və deviant davranışın profilaktikası uzun müddətdir ki, alimlərin diqqət mərkəzindədir. Vətən və əcnəbi alimlərinin bir çoxu pedaqoji, psixoloji və sosioloji tədqiqatlarını məhz bu problemin həllinə yönəltmişlər. Belə ki, yeniyetmə və gənclərin deviant davranışı problemini E.V.Zmanovskaya, Y.A.Kleyberq, E.V.Sayenko, M.V.Lvova, Ş.M.Hüseyn - psixoloji, Y.İ.Qilinski - sosioloji, M.A.Kovalçuk, N.M.Noqovitsına, T.A.Kaçmazov, E.A.Potolova isə pedaqoji aspektdə tədqiq etmişlər.

Respublikamızda S.S.Quliyeva “Sosial-psixoloji və iqtisadi amillərin gənclərin deviant davranışına təsiri (Gəncə şəhərinin nümunəsində)” mövzusunda dissertasiya üzərində işləyir. Onun “Aqressiya deviant davranışın əsas amillərindən biri kimi”, “Cinayətkar davranışın yaranma səbəbləri və onun reabilitasiyası” və s. bu kimi məqalələri çap olunmuşdur.

Ş.M.Hüseyn isə “Yeniyetmələrin deviant davranışlarının aradan qaldırılmasında milli-mənəvi dəyərlərin rolu” mövzusunda dissertasiya işini müdafiə edərək psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə yiyələnmişdir. O, tədqiqat işində yeniyetmələrin deviant davranışının sosial-psixoloji, psixofizioloji xüsusiyyətləri və bəzi deviant davranışların tənzimlənməsi yollarını göstərmiş və yeniyetmələrdə deviant davranışlarının aradan qaldırılmasında milli-mənəvi dəyərlərin təsir imkanlarını təfsir etmişdir.

Göründüyü kimi, yuxarıda qeyd olunan müəlliflər deviant davranış problemini psixoloji aspektdən tədqiq etmişlər. Bizim tədqiqatımız isə bu problemi pedaqoji yönümdə araşdırmağa yönəlmişdir.

Mövzu baxımından R.S.Əliyev və G.Q.Hüseynovanın dissertasiyaları təqdirə layiqdir. Belə ki, R.S.Əliyev 2003-cü ildə "Yeniyetmələrin yenidən tərbiyəsi üzrə işin sistemi", G.Q.Hüseynova isə 2018-ci ildə "Tələbələrin yenidən tərbiyəyə ehtiyacı olan yeniyetmələrlə təlim-tərbiyə işinə hazırlanması" mövzularını tədqiqata cəlb etmiş və dissertasiya müdafiə etmişlər. Yenidən tərbiyə problemi deviant davranış problemi ilə həmahəng səsləndiyindən bizim üçün xüsusi elmi-pedaqoji əhəmiyyət kəsb edir.

Müasir dövrdə və ailə, məktəb və cəmiyyətin başlıca məqsədlərindən biri müstəqil həyatın astanasında olan yuxarı sinif şagirdlərinin dəyişən sosiumun həyatında sivil iştirakını təmin etməkdir. Lakin real proqramların, deviant davranış problemləri üzrə xüsusi hazırlanmış müəllimlərin olmaması və zəif inkişaf etmiş metodiki təminat şəbəkəsi bu prosesin ləngiməsinə səbəb olur. Məhz müasir şəraitdə yuxarı sinif şagirdlərində deviant davranış və onun profilaktikasının pedaqoji aspektdən yetərincə araşdırılmasının ictimai əhəmiyyətini nəzərə alaraq belə bir problemi dissertasiya mövzusu kimi seçməyi məqsədəmüvafiq hesab etdik.

Beləliklə, dissertasiyada araşdırdığımız problemin aktuallığı bir sıra ictimai, pedaqoji, sosioloji və psixoloji amillərlə şərtlənir. Qeyd edilən müddəaları nəzərə alaraq tədqiqat mövzusunu "Yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə işin pedaqoji əsasları" kimi müəyyənləşdirdik.

**Tədqiqatın obyektini** deviant davranışlı yuxarı sinif şagirdləri təşkil edir.

**Tədqiqatın predmeti** yeni pedaqoji təfəkkür şəraitində deviant davranış və onun profilaktikasıdır.

**Tədqiqatın məqsədi** yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikasının nəzəri-metodiki aspektlərinin işlənib hazırlanması və profilaktika prosesinin təşkilinə səmərəli yanaşmanı əsaslandırmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri**:

- yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə

işin nəzəri əsaslarını müəyyənləşdirmək;

- yuxarı sinif şagirdlərinin "deviant davranışı" anlayışının mahiyyətinə, deviant davranışın tiplərinə, formalarına və dinamikasına aydınlıq gətirmək;

- böyük məktəb yaşlı şagirdlərin deviant davranışının öyrənilməsinə dair bioloji, psixoloji, sosioloji yanaşmaları təhlil etmək;

- yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası üzrə dövlət siyasətinin əsas istiqamətlərini diqqət mərkəzinə gətirmək;

- yuxarı sinif şagirdlərinin "deviant davranışı"nın pedaqoji profilaktikasının nəzəri modelini işləmək;

- yuxarı sinif şagirdlərinin deviant davranışının meydana gəlməsinə təsir edən amilləri müəyyənləşdirmək;

- yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası sahəsində təlim prosesi və sinifdənxaric tədbirlərin imkanlarını müəyyənləşdirmək;

- yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası sahəsində ailə və məktəbin əməkdaşlığının rolunu göstərmək;

- eksperimentin təşkili, aparılması və nəticələri barədə aydın təsəvvür yaratmaq.

**Tədqiqat metodları.** Araşdırmalar zamanı nəzəri təhlil və tərkib, pedaqoji müşahidə, pedaqoji müsahibə, anket sorğusu, sənədlərin öyrənilməsi, riyazi-statistik, pedaqoji eksperiment kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə işin pedaqoji əsaslarının müəyyənləşdirilməsi, profilaktikanın həyata keçirilməsinin səmərəli yolları ilə pedaqoji kollektiv üzvlərinin tanış edilməsi səmərəli nəticələnir;

- təlim prosesinin və sinifdənxaric tədbirlərin imkanlarından bacarıqla istifadə edildikdə, yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə iş daha səmərəli olur;

- məktəblilərlə təlim-tərbiyə sahəsində ailə və məktəbin əlbir işi məktəblinin (deviantın) mənəvi-əxlaqi inkişafına yönəldikdə şagird şəxsiyyəti düzgün formalaşır;

- deviant davranışlı yuxarı sinif şagirdləri ilə profilaktik işin təşkili kompleks yanaşma şəraitində daha səmərəli nəticələnir;

- tərbiyəedici və inkişafetdirici mühitin yaradılması, irsi amillərin nəzərə alınması, şəxsiyyətin intellektual, emosional-iradi və fəaliyyət sahəsinə kompleks yanaşma yuxarı sinif şagirdlərinin mənəvi və ümumi mədəniyyətinin inkişafına imkan yaradaraq, deviant davranışın profilaktikası prosesinin səmərəliliyini artırır.

**Tədqiqatın elmi yeniliyi.**

Dissertasiyada:

- yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə işin pedaqoji əsasları müəyyənləşdirilmiş və onlardan istifadə üzrə işin sistemi yaradılmışdır.

- təlim prosesində və sinifdənxaric tədbirlərdə yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikasının xüsusiyyətlərinə aydınlıq gətirilmiş, deviant davranışın profilaktikasının modeli və əsas istiqamətləri işlənmişdir.

- yuxarı sinif şagirdlərinin deviant davranışın profilaktikası üzrə işin vasitələri, priyomları, prinsipləri və formaları müəyyənləşdirilmiş və əsaslandırılmışdır.

- deviant davranışlı yuxarı sinif şagirdlərinə sosial-pedaqoji və psixoloji kömək konsepsiyası hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Dissertasiyada irəli sürülən elmi müddəalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası sahəsində işin elmi əsaslar üzərində qurulmasını təmin edəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.**

1. Yuxarı sinif şagirdlərinin deviant davranışın profilaktikası üzrə işin təşkilində ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinə təlim-tərbiyə prosesində öz köməyini göstərəcəkdir.

2. Tədqiqatın nəticələrindən ali pedaqoji məktəblərin tədris planında yer alan “Pedaqogika”, “Sosial pedaqogika”, “Pedaqoji psixologiya” kurslarının tədrisində istifadə etmək olar.

**Tədqiqatın nəticələrinin aprobasiya və tətbiqi.** Təklif olunan iş sistemi Mingəçevir şəhər 4 nömrəli ümumtəhsil məktəbində tətbiq edilmişdir. Dissertasiyada nəzərdən keçirilən problemlə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövrü elmi jurnallarda (o cümlədən iki məqalə xaricdə) məqalələr nəşr olunmuşdur. İddiaçı, həmçinin

beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin tezisləri (ocümlədən iki konfrans materialı xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya giriş (15804 şərti işarə), iki fəsil (birinci fəsil beş paraqraf – 113552 şərti işarə, ikinci fəsil dörd paraqraf – 93405 şərti işarə), nəticə (7461 şərti işarə), istifadə edilmiş ədəbiyyat siyahısından və "Əlavələr" bölməsindən ibarətdir. Dissertasiyanın ümumi həcmi 230222 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, nəticələrin etibarlılığı, tətbiqi və aprobasiyası barədə yığcam məlumat verilir.

Dissertasiyanın **I fəsli "Yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikası üzrə işin nəzəri əsasları"** adlanır və beş paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafı *"Deviant davranış"ın mahiyyəti, tipləri, formaları və dinamikası"* adlanır. Burada tədqiqatın əsas anlayış və kateqoriyaların mahiyyəti üzə çıxarılmış, yuxarı sinif şagirdlərinin davranışında sapmaların yaranma səbəbləri və inkişaf xüsusiyyətləri müəyyən edilmiş, milli və xarici pedaqogikada yuxarı sinif şagirdlərinin deviant davranışının pedaqoji profilaktikası üzrə nəzəriyyələr təhlil edilmiş, deviant davranışın tipləri və formaları təsnif edilmiş, yuxarı sinif şagirdləri arasında deviant davranışın dikamikası xüsusi olaraq işlənilmiş və təqdim edilmişdir.

Yuxarı sinif şagirdlərinin davranış deviasiyalarının təsnifatını öyrənərkən əyani şəkildə onların müxtəlif təzahür formalarına malik

olduğunu görürük. Davranış pozuntularının müxtəlif formalarının ümumi xüsusiyyətləri mövcuddur və bu xüsusiyyətlər hansı deviasiya qrupuna aid olmanın meyarını müəyyən etməyə imkan verir. Belə xüsusiyyətlərdən biri destruktiv adlandırılmışdır. Həqiqətən də, ümumiyyətlə, deviant davranış nəyinsə dağılmasına (sağlamlığın, münasibətlərin, şəxsiyyətin, cəmiyyətin nizamının), hətta insanın öz həyatına son qoymasına gətirib çıxara bilir.

Buna görə də, "deviant davranış" termini bizim tədqiqat işimizin əsasını təşkil edir.

Ən yeni psixoloji – pedaqoji lüğətdə deviant davranış ( ing. sözündən *deviation* – kənara çıxma, sapma) mövcud cəmiyyətdə (sosial qrupda) rəsmi müəyyən edilmiş və ya faktiki qurulmuş mənəvi və hüquqi normalara uyğun gəlməyən və normanı pozanın (deviantın) təcridinə, müalicəsinə, düzəlməsinə və ya cəzalandırılmasına gətirib çıxaran hərəkət kimi təsvir olunur. "Deviant davranış" terminin sinonimləri bunlardır: "sapdırılmış davranış", "qeyri-normativ davranış", "deviasiya", "addiktiv davranış".

Deviant davranışı normalardan kənara çıxma hərəkətlər kimi müəyyən edərək, biz sosial normaların dinamik proses olduğunu vurğulamaq istəyirik. Bu da öz növbəsində, normadan kənara çıxan davranışı tarixən (təbiətən) gələn xarakter kimi təsvir etməyə imkan yaradır. Müxtəlif zaman formasiyasından və ölkənin inkişaf dinamikasından asılı olaraq, siqaret çəkməni və ya spirtli içki qəbul etməni buna nümunə olaraq misal gətirmək olar. Deməli, deviant davranış verilən vaxtda və nəzərdə tutulan cəmiyyət üçün müxtəlif deyil, sadəcə ən vacib sosial normaların pozulmasıdır.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, ümumən qəbul edilmiş normalara uyğun gəlməyən rolları deviant deyilən davranış forması adlandırmaq mümkündür.

Deviant davranış müxtəlif formalarda (alkoqolizm, narkomaniya, qətl, korrupsiya, cinayətkarlıq, homoseksualizm və s.) özünü büruzə verə bilir.

Deviant davranışın bəzi formalarının və yayılma dinamikasının nəzərdən keçirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verdi:

- özünün rəngarəngliyinə baxmayaraq sosial normalardan kənara çıxmaların artmasına və yayılmasına aparan bəzi ümumi səbəblər

vardır. Mahiyyət etibarı ilə onlar ictimai inkişafın obyektiv və subyektiv ziddiyyətlərini doğurur, bu da öz növbəsində şəxsiyyətin sosial mühitlə qarşılıqlı əlaqəsini pozur və mövcud normalar sisteminə xas olmayan davranış formalarının yaranması ilə nəticələnir;

- deviasiyaların formaları arasındakı nisbi qarşılıqlı əlaqə faktı sapma davranışın ümumi qanunauyğunluğu kimi çıxış edir. Bu qarşılıqlı əlaqələr bir neçə sosial patologiyaların induksiyası görüntüsünü daşıya bilər. Bu zaman bir hadisə digərini gücləndirir, deviasiyaların bir formasının yayılması digərinin yaranmasına imkan verir, yuxarı sinif şagirdini deviant hərəkətə cəlb edir, onda başqa formaya maraq oyadır;
- ölkəmizdə deviontoloji problemlərin kəskinliyi ümumi genezisə malikdir və səmərəli profilaktik sistemin yaradılmasını tələbata çevirir;
- qeyri-normativ davranışın neqativ formalarına qarşı mübarizədə, deviasiyanın müəyyən edilmiş səbəbləri nəzərə alınmaqla, təşkil olunan profilaktik iş əsas rol oynayır.

I fəslin *"Deviant davranışın öyrənilməsinin əsas istiqamətləri"* adlanan ikinci paraqrafında müxtəlif nəzəriyyələr nəzərdən keçirilmişdir. Araşdırmalarımız nəticəsində, biz belə bir qənaətə gəldik ki, yalnız pedaqoji tədqiqatlar vasitəsi ilə yuxarı sinif şagirdləri arasında, deviasiyaların yaranma səbəbləri haqqında hansısa qəti fikir söyləmək mümkün deyil.

Yuxarı sinif şagirdinin deviant davranışına dair müasir biliklər bizə onun sosial davranışın ən çətin forması olması barədə ilkin təsəvvürləri yaradır. Təəssüf ki, şəxsiyyətin sapma davranışının vahid nəzəriyyəsi hələ formalaşdırılmayıb. Bununla yanaşı, bu məsələ ilə bağlı geniş məlumatlar tibbdə, biologiyada, psixologiyada, sosiologiyada, hüquqda və s. öz əksini tapmışdır.

Xarici və milli psixopedaqoji ədəbiyyatın təhlili bizə deviant davranışın tədqiqatında bioloji, psixoloji və sosioloji yanaşmaları ayırd etməyə imkan verdi.

Bioloji yanaşma antropoloji determinizm konsepsiyasını, konstitusion (bədən quruluşu) tiplərin nəzəriyyəsini, endokrin və xromosom nəzəriyyələrini özündə birləşdirir.

Psixoloji yanaşma psixoanalitik nəzəriyyədə, A.Adlerin fərdi psixologiyasında, humanistik nəzəriyyədə, empirik yanaşmada, klinik kriminoloqiya nəzəriyyəsində öz əksini tapmışdır.

Sosial yanaşma xüsusi maraq cəlb edir, bura anomiya, mədəniyyət, sosial öyrətmə, stiqmatizasiya, konfliktoloji kimi nəzəriyyələr daxildir.

Beləliklə, yuxarı sinif şagirdlərinin deviant davranışının əsas səbəbləri kimi, inkişaf etməmiş şəxsiyyətdə neqativ təsir göstərən bioloji, sosioloji və psixoloji şərtlərin konqlomeratı çıxış edir.

I fəslin üçüncü paraqrafı "*Deviant davranışın profilaktikası üzrə dövlət siyasəti*"-nin müəyyənləşdirilməsinə həsr edilmişdir. Hazırda cəmiyyətimiz qəbul etməlidir ki, müsbət dəyişikliklərlə bərabər, uşaqların və gənclərin inkişafına və formalaşmasına bilavasitə təsir göstərən, sosial problemlər də kəskin şəkildə özünü büruzə verməkdədir. Yaranmış vəziyyətdə ailə, məktəb və ictimai tərbiyənin ən aktual, sosial əhəmiyyətli məsələlərindən biri də deviasiyaların artmasının qarşısının alınması və preventiv tədbirlərin səmərəliliyinin yüksəldilməsidir. Ümumtəhsil məktəbində pedaqoji kollektivlərin işinin vacib istiqaməti böyüyən nəslin sosiallaşması, şəxsiyyətin inkişafı üçün müvafiq şəraitin və yuxarı sinif şagirdlərində sosial və hüquqi mədəniyyətin formalaşdılmasıdır.

Deviant davranışın müxtəlif təzahürlərinin irəliləyən artımı cəmiyyət üçün mühüm sosial problem yaratdığından onu vaxtında və səmərəli şəkildə həll etmək lazımdır. Deviant davranışın profilaktikası ilə bağlı əhalinin sosial müdafiəsi üzrə dövlət orqanlarının, digər təşkilatların və idarələrin praktik fəaliyyətində, müvafiq mübarizə vasitələri və işin konkret istiqamətlərinin seçimini nəzərdə tutan problemə dair müəyyən yanaşmalar formalaşmışdır.

Respublikamızda dövlət siyasəti çərçivəsində gənclər arasında deviasiyalarla mübarizə və onların qarşısının alınmasına dair həyata keçirilən tədbirlər, bu sahədə kifayət qədər yüksək nəticələrə nail olunduğunu göstərmişdir.

Məktəb təhsil sistemində həyata keçirilən islahatlar yuxarı sinif şagirdlərinin deviant davranışının inkişaf tendensiyasına müsbət təsir göstərmişdir. Bəzi çatışmazlıqlara baxmayaraq, onlar dövlət tərəfindən həyata keçirilən antideviant siyasətinin səmərəli tədbirləri hesab edilə bilər.

I fəslin dördüncü paraqrafı "*Yuxarı sinif şagirdlərində deviant davranışın pedaqoji profilaktikasının nəzəri modeli*" adlanır. Biz yuxarı sinif şagirdlərinin deviant davranışının pedaqoji profilaktikasının nəzəri

modelini işləyib hazırlamağa çalışdıq. Bu model yuxarı sinif şagirdləri ilə pedaqoji işi, pedaqoqların nəzəri və metodik hazırlığını və ailə ilə işi özündə ehtiva edir.

Biz yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası modelində, işin aşağıdakı metodlarını xüsusi olaraq vurğulamağa çalışmışıq: məlumatverici (hüquqi davranış normaları ilə bağlı, lazımi məlumatın təmin edilməsi); davranış vərdişlərinin mənimsənilməsi ilə əlaqəli metod (davranış pozuntuları ilə əlaqəli olan, müzakirələr vasitəsi ilə və problemin təhlili ilə, biliklərin genişlənməsinə təkan verən konkret həyati situasiyaların təhlili); müsbət – konstruktiv metod (psixoloji dayanaqlığın yüksəlməsinə, gərginliyin aradan qaldırılmasına, həyəcanlılıq dərəcəsinin aşağı salınmasına, əminliyin yüksəldilməsinə və s. yönəlmiş treninqlərin təşkili və keçirilməsi). Profilaktik işin təşkilində işin bir sıra təşkili formalarından (mühazirələr, söhbətlər, seminarlar, konfranslar, disputlar, sosioloji sorğu, video materialların nümayişi və s.) istifadəni məqsədəuyğun hesab etdik.

Modelimizə əsasən, yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası üzrə pedaqoqlarla profilaktik işin aparılmasına dair hazırlıq pedaqoji şuralar, dəyirmi masalar, praktikum-seminarlar, elmi-praktik konfranslar, mütəxəssislərin mühazirələri, metodbirləşmələr, psixo-pedaqoji treninqlər formasında təşkil edilir.

Apardığımız tədqiqatlar nəticəsində, biz belə qərara gəldik ki, yuxarı sinif şagirdlərinin deviant davranışının ilkin profilaktikasında həlledici rol məhz pedaqoqların üzərinə düşür. Lakin onların işi şagirdlərə bilavasitə tərbiyəvi təsirlə yekunlaşmamalıdır, onlar bu məsələdə valideynlərin imkanlarına güvənərək, işini müəyyən xətt üzrə quraraq aparmalıdır.

Ailə və valideynlərlə profilaktik iş bizim modelimizin növbəti istiqamətlərindən biridir. Onlar deviant davranışın profilaktikasında böyük imkanlara malikdirlər. Onu da, qeyd edək ki, valideynlərin böyük həyati təcrübələri vardır, onlar müxtəlif peşələrin nümayəndələri olaraq, zərərli vərdişlərə yiyələnmənin əmək məhsuldarlığına təsir etdiyinin əyani surətdə şahidi olurlar. Valideynlərin profilaktik tədbirlərdə iştirakı yuxarı sinif şagirdləri üçün mühüm əhəmiyyət daşıyır.

Tədqiqat zamanı valideynlərlə, pedaqoqlarla, yuxarı sinif şagirdlərilə işdə digər mütəxəssislərin də böyük rolunun olduğunu

xüsusi olaraq qeyd etdik (məktəb psixoloqu, polis uşaq otağı işçiləri və s.).

Apardığımız təhlil nəticəsində belə bir qənaətə gəlirik ki, hazırda deviant davranış probleminə həsr olunmuş elmi tədqiqatlar, preventiv təsirin kompleks sistemini işləyərək, müxtəlif profilli mütəxəssisləri cəlb edərək və faktlar sistemini araşdıraraq, problemi hərtərəfli əhatə etməyə çalışıblar. Yeniyetmələrin deviant davranışının profilaktikası preventiv xarakterli xüsusi tədbirlərin işləyib hazırlanmasını və keçirilməsini tələbata çevirir. Həmçinin qabaqlayıcı xarakter daşıyaraq, profilaktik tədbirlər sistemini hüquqi, sosial, tibbi, psixoloji, pedaqoji səviyyələrdə aparılmasına zəmin yaradır.

Bütövlükdə, müasir dövrdə ölkəmizdə, yeniyetmələrin və ilk gənclik yaşında olan yuxarı sinif şagirdlərinin deviant davranışın əsas preventiv tədbirləri aşağıdakı mühüm göstəricilərə istiqamətlənibdir:

- uşaq və yeniyetmələrin etibarlı psixoloji və pedaqoji müdafiəsinin təmin edilməsi;
- yeniyetmə mühitində, kriminal və addiktiv halları sıxışdırıb aradan çıxara biləcək sosial dəyərli ənənələrin formalaşdırılması;
- pozitiv məqsədləri olan gənclər təşkilatlarının dəstəklənməsi və asosial qrupların fəaliyyətinin qarşısının alınması;
- müasir tələblərə cavab verən gənclər siyasətinin aparılması;
- ailə institutunun dəstəklənməsi;
- sosial işin inkişafına və yenilənməsinə kömək etmək;
- "çətin ailələrlə" fəal işin aparılması;
- təhsil sahəsində bərabər imkanların yaradılması;
- əhalinin savadlılığının və sosial məsuliyyət səviyyəsinin yüksəldilməsi;
- cəmiyyətdə ailə və məktəbin rolunun yüksəldilməsi;
- uşaqların hüquqlarının qorunmasına dair qanunların təkmilləşdirilməsi, yeniyetmələrə və ilk gənclik yaşında olan yuxarı sinif şagirdlərinə kömək göstərməyə yönəlmiş təşkilatların yaradılması.

Beləliklə, biz belə hesab edirik ki, yuxarı sinif şagirdlərinin deviant davranışının pedaqoji profilaktikası üzrə hazırladığımız model sağlam nəslin böyüməsinə zəmin yaradar və yuxarı sinif şagirdlərinin gələcək həyatlarında hədəflərinin seçiminə təsir edə bilər.

**Cədvəl 1**

**Yuxarı sinif şagirdləri arasında deviant davranışın pedaqoji profilaktikasının modeli**

| Fəaliyyətin istiqamətləri | Yuxarı sinif şagirdləri ilə iş | Pedaqoqların hazırlanması | Valideynlərlə iş |
|---|---|---|---|
| İşin məzmunu | - sosial mühitdə yuxarı sinif şagirdlərinin mənəvi cəhətdən sağlam münasibətlərin qurması və həmin mühitə uyğunlaşması;<br>- deviasiyaların inkişafına təsir edən şəxsiyyətin neqativ xüsusiyyətlərinin aradan qaldırılması;<br>- deviant davranış problemlərinə dair maarifləndirmə;<br>-yuxarı sinif şagirdinin müsbət maraq və meyllərinə əsaslanaraq, onun sosial aktiv fəaliyyətə cəlb edilməsi;<br>- yuxarı sinif şagirdlərinin düzgün davranışının formalaşmasına yönəlmiş proqramların reallaşdırılması, məşğələlərin keçirilməsi | - Yuxarı sinif şagirdlərinin valideynləri ilə səmərəli kommunikasiya bacarıqlarına yiyələnməsinin aşılanması;<br>- deviant davranışın profilaktikası üzrə baza peşə biliklərinin formalaşdırılması;<br>- profilaktika proqramlarının həyata keçirilməsi üçün bacarıq və vərdişlərin inkişaf etdirilməsi;<br>- şagirdlərə psixo-pedaqoji dəstəyin göstərilməsi məsələləri üçün, pedaqoji səriştənin yüksəldilməsi;<br>- ümumtəhsil məktəbində pedaqoji profilaktikanın aparılması dair pedaqoqlar üçün metodik təminatının hazırlanması. | - valideynlərin aktiv şəkildə profilaktika prosesinə qoşulması;<br>- yuxarı sinif şagirdlərində davranış pozuntularının yaranması problemlərinə dair mariflәndirmə;<br>- əməkdaşlığa və qarşılıqlı əlaqəyə əsaslanaraq, profilaktik işdə birgə tədbirlərin hazırlanması;<br>- yuxarı sinif şagirdlərinin deviant davranışı profilaktikası prosesində, valideynlərin pedaqoqlarla konstruktiv qarşılıqlı əlaqəsinin yaradılması. |
| Məktəbdə aparılan profilaktik işin formaları | Mütəxəssislərlə konsultasiyalar; videomaterialların nümayişi; rollu oyunlar; yaradıcılıq işlərinin müsabiqəsi; seminarlar, disputlar; treninqlər. | Seminarlar, pedaqoji şuralar, elmi-praktik konfranslar, metodbirləşmələr, master klasslar, treninqlər. | Valideyn iclasları, açıq qapı günləri, mütəxəssislərin fərdi konsultasiyası, treninqlər. |

I fəslin “*Yuxarı sinif şagirdlərində deviant davranışı şərtləndirən amillər*” adlanan beşinci paraqrafında, deviant davranışın konkret yaranma səbəblərini araşdırmağa çalışdıq. Nəticədə yuxarı sinif şagirdlərində deviant davranışının meydana gəlməsinə təsir edən amillər arasında aşağıdakıları xüsusi olaraq qeyd etdik:

- davranış deviasiyalarının formalaşmasına zəmin yaradan, yetkinlik yaşına çatmayanların fərdi-psixoloji xüsusiyyətləri: emosional-iradi sferada pozuntular;
- yeniyetmənin xarakterinin aksentuasiyası, normanın ən axırıncı variantı kimi;
- fizioloji və psixoloji inkişafın ziddiyyətləri fonunda, surətlə keçən yeniyetməlik böhranı, yaşından böyük görünməyə canatma;
- yuxarı sinif şagirdlərinin şəxsiyyətinin formalaşmasında qeyri formal qruplarda ünsiyyətin mənfi təsiri;
- sosial-pedaqoji amillər (ailə və məktəb);
- məktəb dezadaptasiyası.

Beləliklə, yuxarı sinif şagirdləri arasında deviant davranışın yaranması riskini yüksəldən əsas amillər qrupunun öyrənilməsi, profilaktik müdaxilə üçün aşağıdakı identifikasiya sahələrini xüsusi olaraq vurğulamağımıza imkan yaratdı: ailədə münasibətlər, həmyaşıdlarla münasibətlər, məktəbdə mikroiqlim, ictimai mühit. Bu sahələrdən hər biri təkcə risk amili kimi deyil, həm də şagirdin davranışında yarana biləcək pozuntuların qarşısını almaq üçün istifadə edilən amillər rolunda da çıxış edə bilər.

Dissertasiyanın *“**Yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası üzrə işin təcrübi problemləri**”* adlanan II fəslinin birinci paraqrafı “*Təlim prosesində deviant davranışın profilaktikası*” adlanır. Təlim prosesində X-XI siniflərin Azərbaycan tarixi və ədəbiyyat fənlərinin materiallarına əsaslanaraq yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikasını təşkil etdik.

Yuxarı sinif şagirdlərinin idrakı maraqları, arzu və istəkləri nəzərə alınmaqla, dərs zamanı aldıqları biliklərin deviant davranışın profilaktikasında böyük əhəmiyyət kəsb etməsində Tərtər şəhər Ə.Məmmədov adına 1 nömrəli tam orta məktəbin Azərbaycan tarixi və ədəbiyyat fənlərini tədris edən müəllimləri xüsusi olaraq fərqlənirdi. Bu müəllimlər, təlim prosesinin təhsilləndirici, inkişafetdirici funksiyalarını

diqqət mərkəzində saxlamaqla, ayrı-ayrı mövzuların tərbiyələndirici imkanlarını nəzərə almaqla yuxarı sinif şagirdlərinin daxili aləminə nüfuz etməyə, onların ən gözəl hisslərini oyatmağa, əxlaqını saflaşdırmağa, mənəvi keyfiyyətlətini inkişaf etdirməyə hər vəclə səy göstərirdilər. Nəticədə onların, cəmiyyətin nəzərində xoşagəlməz hesab olunan əməllərdən əl çəkəcəklərinə, davranış mədəniyyətinə yiyələnəcəklərinə ümid edirdilər.

Dissertasiyanın II fəslinin ikinci paraqrafı "*Deviant davranışın profilaktikası sahəsində sinifdənxaric tədbirlərin imkanları*" adlanır. Deviant davranış xoşagəlməz, ciddi narahatlıq doğuran bir davranışdır. Bu mənada bəzi yeniyetmə və gənclərin ailədə, məktəbdə, ictimai yerlərdə özlərini apara bilməmələrinə, savaşmalarına, şəxsiyyətlərarası münasibətləri düzgün qurmamalarına, qanunu, hüquq qaydalarını, birgəyaşayış normalarını pozmalarına, cinayət xarakterli əməllərə uymalarına, onların qeyri-əxlaqi hərəkətlərinə laqeyd qalmaq olmaz. Valideynlər, müəllimlər, ictimaiyyət nümayəndələri fəallıq göstərməli, deviant davranış halları aşkara çıxdıqda onun profilaktikası barədə düşünmək lazımdır.

İlk növbədə deviant davranışın profilaktikası üzrə tədbirlər müəyyənləşdirilməli, yuxarı sinif şagirdlərinin asudə vaxtlarında, təlimdən sonrakı vaxtlarda onlar həyata keçirilməlidir. Lakin belə bir cəhət diqqət mərkəzində dayanmalıdır ki, sinifdənxaric tədbirlər tədbir xatirinə təşkil olunmamalıdır. Kəmiyyətdən daha çox keyfiyyətə fikir verilməlidir. Bunu necə başa düşməli? Bəzən elə olur ki, ümumtəhsil məktəblərində bu və ya digər problem üzrə tez-tez tədbirlər planlaşdırır və həyata keçirirlər. Lakin həmin müzakirənin, müsabiqənin, disputun, söhbətin, tematik gecənin, görüşlərin şagirdlərin mənəvi şüurunda, mənəvi təfəkküründə, davranış təcrübəsində hansı müsbət dəyişikliklər yarada bilməsi diqqət mərkəzindən kənarda qalır. Başqa sözlə, sinifdənxaric iş oğlanların və qızların hiss və duyğularına səmərəli təsir göstərdimi, onlarda özünütəhsilə, özünütərbiyəyə, yenidəntərbiyə olunmaya tələbat formalaşdırdımı? Bu vacib məsələlər öyrənilmir. Çoxlu tədbir keçirmək, bu, kəmiyyətdir. Az tədbir keçirib yüksək nəticə qazanmaq – keyfiyyətdir. Sinifdənxaric tədbirin keyfiyyəti.

Eksperimentə cəlb edilmiş ümumtəhsil məktəblərində deviant davranışın profilaktikası üzrə işdə bu cəhət – keyfiyyət diqqət

mərkəzində idi. Sinifdənxaric tədbirlərin təşkili zamanı pedaqoji nəzarətə fikir verilirdi. Tədbir başa çatandan sonra müsbət və mənfi hallar, yaxşı və xoşagəlməz cəhətlər diqqət mərkəzinə gətirilir, müzakirəyə, söhbətə, müsabiqəyə, disputa, tematik gecəyə, şagirdlərin fəaliyyətinə qiymət verilirdi. Məktəblilərdən fəallıq tələb olunur, onların idrak maraqlarının, intellektual qabiliyyətlərinin pedaqoji-psixoloji diaqnostikası keçirilirdi.

Təbii ki, yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası üzrə iş kor-təbii aparılmırdı. Bu məsələ ilk növbədə ümumtəhsil məktəbinin, sinif rəhbərlərinin "Sinifdənxaric tərbiyəvi işlərin planı"nda öz əksini tapırdı. İkincisi, pedaqoji kollektivin üzvləri, məktəb kitabxanaçısı, sinif rəhbərləri, fənn müəllimləri, tərbiyə işləri üzrə direktor müavinləri məktəblilərin deviant davranışının profilaktikası işinə ciddi hazırlaşırdılar. Bu məqsədlə mövcud ədəbiyyatı izləyir, sinifdənxaric işin təşkili metodikasına bələd olur, şagirdləri öyrənirdilər.

II fəslin üçüncü paraqrafı "*Yuxarı sinif şagirdlərində deviant davranışının profilaktikasında ailə və məktəbin birgə fəaliyyəti*" adlanır. Bu, bir həqiqətdir ki, yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası heç də asan başa gəlmir. Nə məktəb, nə ailə, nə də sosial təsisatlar, hüquq mühafizə orqanları ayrı-ayrılıqda bu işi uğurla həyata keçirə bilməzlər. Birgə fəaliyyət tələb olunur. Bu mənada məktəb və ailənin əlbir işi xüsusi rola malikdir.

Profilaktik işin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərindən biri ailə ilə işin təşkili və təkmilləşdirilməsidir.

Valideynlər arasında belə bir yanlış fikir yayılmışdır ki, güya məktəb uşaqların əsas tərbiyəçisidir, şagirdin heç də yaxşı olmayan, müvəffəqiyyət göstəricilərinin günahkarı isə müəllimdir. Yeniyetmələrdə yaranan mədəniyyətsizliyinin günahını da küçənin üzərinə atırlar. Əksər hallarda tərbiyə prosesi zamanı ailə sanki özünü kənara çəkməyə çalışır.

Öz-özlüyündə təhsil müəssisəsi şəxsiyyət və cəmiyyətin həyat fəaliyyətinin obyektiv şərtlərini dəyişmək gücündə deyil, lakin savadlı şəkildə təşkil olunmuş tərbiyə işi, şagirdin imkanlarının aşkarlanmasına təkan verə və onun maraq və meyllərinin istiqamətini dəyişə bilər.

Bu prosesdə məhz sinif rəhbərinin rolu danılmazdır. Onun əsas

vəzifəsi problemin ilkin təzahürlərini vaxtında görmək, hadisələrin mümkün olan inkişafını proqnozlaşdırmaq və yaranan müvafiq vəziyyətin düzəldilməsi üçün müəyyən tədbirlər həyata keçirməkdir.

Tədqiqatımızın nəticəsində belə qənaətə gəldi ki, məktəbin deviant davranışlı şagirdlərlə apardığı tərbiyəvi-korreksiyaedici, profilaktik iş yeniyetmə və gənclərin davranışında mövcud olan çatışmazlıqların aradan qaldırılmasına imkan verir, məktəblilərin şəxsiyyətinin inkişafında və formalaşmasında neqativ tendensiyaların öhdəsindən gəlməyə zəmin yaradır. O, şagirdlərlə profilaktik və korreksiya işi üzrə təşkil olunmuş mütəxəssislər qrupunda əlaqələndirici həlqə rolunda çıxış edir.

Dissertasiyanın II fəslin sonuncu, dördüncü paraqrafı "*Yuxarı sinif şagirdlərində deviant davranışın profilaktikasının monitorinqi*"nə həsr edilmişdir. Burada tədqiqatın məqsədi və vəzifələrinə müvafiq olaraq eksperiment (müəyyənedici, öyrədici, yoxlayıcı) 2017-2020-ci tədris illərində mərhələli şəkildə Tərtər şəhəri Ə.Məmmədov adına 1 №-li, Mingəçevir şəhər N.Nərimanov adına 1 №-li və 4 №-li tam orta məktəblərin bazasında həyata keçirilmişdir. Bu məqsədlə çoxsaylı cədvəllər tərtib olunmuşdur. Onlardan bəzilərinə diqqət yetirək:

**Cədvəl 2**

**Eksperimental və kontrol qruplarında yuxarı sinif şagirdlərində aqressiyanın ifadəlilik səviyyəsinin öyrənilməsi nəticələri (%-lə)**

| Səviyyələr | Aqressiyanın forması | Eksperimental qrup | Kontrol qrup |
|---|---|---|---|
| Yüksək | Fiziki aqressiya | 40 | 30 |
| Orta | | 30 | 30 |
| Aşağı | | 30 | 40 |
| Yüksək | Verbal aqressiya | 67 | 28 |
| Orta | | 22 | 51 |
| Aşağı | | 11 | 21 |
| Yüksək | Dolayı aqressiya | 40 | 20 |
| Orta | | 40 | 40 |
| Aşağı | | 20 | 40 |
| Yüksək | Neqativizm | 65 | 25 |
| Orta | | 25 | 43 |
| Aşağı | | 10 | 32 |

**Cədvəl 2-nin ardı**

| | | | |
|---|---|---|---|
| Yüksək | Əsəbilik | 62 | 27 |
| Orta | | 23 | 50 |
| Aşağı | | 15 | 23 |
| Yüksək | Şübhəlilik | 52 | 31 |
| Orta | | 36 | 19 |
| Aşağı | | 12 | 50 |
| Yüksək | İnciklik | 42 | 39 |
| Orta | | 33 | 30 |
| Aşağı | | 25 | 31 |
| Yüksək | Aqressiya və təqsirkarlıq hissi | 33 | 25 |
| Orta | | 49 | 51 |
| Aşağı | | 18 | 24 |

Cədvəldən göründüyü kimi, sosial risk qrupuna daxil olan yuxarı sinif şagirdlərinin aqressiya formalarının səviyyəsi kifayət qədər yüksəkdir. Pedaqoji profilaktikanı həyata keçirdikdən sonra, Bass-Dark sorğusuna görə yuxarı sinif şagirdlərində aqressiyanın formalarının daha pozitiv nəticələri Cədvəl 3-dəki kimi, öz əksini tapdı:

**Cədvəl 3**

| Səviyyələr | Aqressiyanın forması | Eksperimental qrup % | Kontrol qrup % |
|---|---|---|---|
| Yüksək | Fiziki aqressiya | 20 | 30 |
| Orta | | 25 | 19 |
| Aşağı | | 55 | 51 |
| Yüksək | Verbal aqressiya | 21 | 28 |
| Orta | | 29 | 35 |
| Aşağı | | 50 | 37 |
| Yüksək | Dolayı aqressiya | 19 | 20 |
| Orta | | 23 | 35 |
| Aşağı | | 58 | 45 |
| Yüksək | Neqativizm | 16 | 23 |
| Orta | | 25 | 39 |
| Aşağı | | 59 | 38 |
| Yüksək | Əsəbilik | 17 | 30 |
| Orta | | 21 | 43 |
| Aşağı | | 62 | 27 |
| Yüksək | Şübhəlilik | 24 | 29 |
| Orta | | 33 | 33 |
| Aşağı | | 43 | 38 |

**Cədvəl 3-ün ardı**

| | | | |
|---|---|---|---|
| Yüksək | İnciklik | 18 | 30 |
| Orta | | 27 | 30 |
| Aşağı | | 55 | 40 |
| Yüksək | Aqressiya və təqsirkarlıq hissi | 22 | 25 |
| Orta | | 29 | 48 |
| Aşağı | | 49 | 27 |

Cədvəldən göründüyü kimi, sosial risk qrupuna daxil olan yuxarı sinif şagirdlərinin aqressiya formalarının səviyyələri hiss olunacaq dərəcədə azalıb. Kontrol qruplarla müqayisədə eksperimental qruplar müsbət göstəriciləri ilə diqqətə çarpır.

Profilaktik proqramın reallaşmasından sonra eksperimental qrupda davranış pozuntusuna meylliliyi xarakterizə edən göstəricilər müsbət tərəfə dəyişdi, addiktiv və təcavüzkar davranışa meylliliyin isə kifayət qədər azaldığı müşahidə olundu. Eksperimental qrupdakı yuxarı sinif şagirdləri daha mehriban, ünsiyyətcil oldular, münaqişəli situasiyaların baş verməsi halları azaldı. Eksperimental qrupdakı şagirdlər risk qrupuna daxil edilmədi, kontrol qrupun yuxarı sinif şagirdləri isə deviant davranış üzrə risk qrupunda qalmağa davam etdilər.

Dissertasiyada aşağıdakı *nəticələrə* gəlinmişdir:

1. Yuxarı sinif şagirdlərində deviant davranışının öyrənilməsinin əsas istiqamətlərini müəyyənləşdirərkən aydın oldu ki, deviant davranış mürəkkəb bir problem kimi sosiologiya, psixologiya, biologiya, tibb, hüquq və təbii ki, pedaqogikanın, xüsusilə, X-XI sinif şagirdləri arasında deviant davranışın qarşısının alınmasının effektivliyinə dair tədqiqat obyektidir. Şagirdlər cəmiyyətin normalarından kənara çıxa bilmədikləri üçün deviant davranış nümayiş etdirirlər, cəmiyyətdə özlərini təsdiq edə bilmədiklərinə görə davranışlarına mənfi motivlər gətirirlər.

2. X-XI sinif şagirdlərinin deviant davranışının meydana gəlməsinə təsir edən amilləri araşdırarkən müəyyən oldu ki, onun mexanizmi, əsasən, bioloji-psixoloji və sosial-pedaqoji amillərə əsaslanır. Bioloji-psixoloji amillərə X-XI sinif şagirdlərinin təbii meylləri, ani impulslar, dar eqoist instinktlər, törədilmiş hadisə və

hərəkətlərin şüursuzluğu daxildir. Sosial-pedaqoji amillərə isə ətraf mühit amilləri (ailənin və məktəbin təsiri), əxlaqsız davranış sisteminin təsdiq edildiyi təhsil nümunələri və şagirdin özünü idarəetmə bacarıqlarının olmaması daxildir. Bütövlükdə amillərin hamısı böyük məktəb yaş dövründə şagirdlərin deviant davranışının destruktiv yönümündə, sosiallaşmanın ilk mərhələsində ümumi qəbul olunmuş normalardan kənara çıxan, şəxsiyyətin özünü təsdiqləmə formasında öz əks tapır. Bu, maarifləndirmənin zəifliyi, tərbiyəsiz hərəkətlərin və qeyri-qanuni əməllərin üstünlük təşkil etməsi ilə xarakterizə olunur.

3. Yuxarı sinif şagirdlərində deviant davranışının formalaşması mexanizminin əsas elementlərini təşkil edir: sosial baxımdan təsdiqini tapmış müvafiq stereotipin şagirddə olmaması və ya zəif ifadəsi ilə xarakterizə olunan problemli vəziyyətin mövcudluğu; asosial davranış stereotipinə çevrilə bilən idarə edilməz hərəkətlər şəklində anlıq motivlərin həyata keçirilməsi ehtiyacını ifadə edən münasibətlərin üstünlüyü ilə müşahidə olunan problemli vəziyyətin həlli. Nəticədə, əksəriyyət tərəfindən qəbul edilən normalara riayət etməyi tələb edən, müəyyən fərdlər və qruplarla münaqişəyə səbəb olan hərəkətlər mənfi emosiya və hisslərlə zənginləşir.

4. Yuxarı sinif şagirdlərində deviant davranışının profilaktikası sahəsində məktəb və ailə əməkdaşlığının rolunu müəyyənləşdirərkən məlum oldu ki, deviant davranışının təzahür formalarına şəxsiyyətin sosiallaşması prosesinin baş verdiyi sosial mühit böyük təsir göstərir. Şagirdlərin ən mühüm institutu ailədir. Ailədə böyüklərin davranış forması (pis vərdişlər: siqaret çəkmək, spirtli içki qəbul etmək, nalayiq sözlər, kobudluq və qəddarlıq) X-XI sinif şagirdlərində deviant davranışın təzahürünü gücləndirir. Evdən qaçmaq, tüfeyli həyat tərzi sürmək, siqaret çəkmək, nizam-intizam qaydalarını pozmaq, evdən kənarda oğurluq etmək, aqressivlik, kobudluq, spirtli içki qəbul etmək kimi davranış pozuntuları valideynləri tərəfindən fiziki cəzaya məruz qalan, övladına qarşı kobudluq və qəddarlıq nümayiş etdirən ailələrin uşaqlarının davranışlarında daha çox özünü büruzə verir.

5. Tədqiqat göstərdi ki, məktəb və ailə əməkdaşlığında şagirdin ailəsinə diqqət yetirilməlidir, çünki yuxarı sinif şagirdlərinin deviant davranışının əsas səbəbləri müəyyən dərəcədə ailənin tipindən asılıdır.

6. Yuxarı sinif şagirdlərində deviant davranışının əsas mahiyyətini

müəyyənləşdirərkən aydın oldu ki, bu tipli davranışın meydana çıxmasının əsas səbəblərdən biri – deviantın öz maddi rifahını qısa müddət ərzində yaxşılaşdırmaq istəyidir. Nəticədə aztəminatlı ailədə yaşayan və daim gündəlik xərclik pulu, geyim və digər əşya çatışmazlığı yaşayan şagird məktəbi tez bitirib işə düzəlməyə can atır. Bundan əlavə, bilik səviyyəsinin aşağı olması şagirdlərin müvafiq orta ixtisas və ya ali təhsil müəssisəsinə daxil olmasına imkan vermir, nəticədə bunu dərk edən şagird hətta 8-9-cu siniflərdə də diqqətini yüksək təhsilə deyil, məqsədyönlü şəkildə işlə təmin edilməyə yönəldir. Burada əsas hədəf pul qazanmaq və sərbəst olmaqdır. Beləliklə, təhsilin dəyəri itirilir, bu da aşağı akademik göstəricilərə və məktəbdə davamiyyətin aşağı səviyyədə olmasına səbəb olur.

7. Tədqiqat göstərdi ki, valideynlərin təhsili X-XI sinif şagirdlərində deviant davranışın təzahür formalarına və səviyyəsinə də təsir göstərir. Valideynləri orta təhsil səviyyəsindən aşağı olan şagirdlərin davranışlarında siqaret çəkmə, məktəbdən yayınma, aqressiya, kobudluq, hiylə, saxtakarlıq, narkotik vasitələrdən sui-istifadə, nalayiq sözlər, spirtli içkilərdən istifadə kimi deviant davranış formaları daha çox özünü biruzə verir. Bu kateqoriyadan olan valideynlərin hətta ümumi pedaqoji biliyinin olmaması, həmçinin xüsusi pedaqoji ədəbiyyatın mütaliəsinə marağın zəif olması yuxarı sinif şagirdlərinin tərbiyəsində səmərəsiz üsullardan istifadə edilməsinə səbəb olur. Deviant davranışa meyilli şagirdlərin valideynləri ilə xüsusi pedaqoji iş tələb olunur. Valideynlərə ailədə şagirdlərin tərbiyəsində yaranan çoxsaylı problemlərin həllinə imkan verən daimi məsləhət xidmətinə ehtiyac duyulur.

8. Yuxarı sinif şagirdlərində deviant davranışının pedaqoji profilaktikasının nəzəri modelini öyrənərkən müəyyən etdik ki, bu model sosiallaşma prosesində iştirak edən çoxsaylı komponentlərdən ibarət mürəkkəb sistemdir. Şagirdlərin inkişafına aşağıdakı komponentlər təsir edir: ailənin yaşayış şəraiti, həyat tərzi, valideynlərin davranışı və uşaqlara münasibəti, tərbiyənin xüsusiyyətləri, ailə tipi, valideynlərin dəyər yönümləri, onların təhsil səviyyəsi və s. Bu elementlərin işində hansısa uyğunsuzluq və ya çatışmazlıq, çox vaxt deviant davranışa səbəb olur.

9. Tam orta məktəb təhsil səviyyəsinin şagirdləri arasında deviant

davranışın qarşısının alınmasının keyfiyyəti aşağıdakı meyarlardan istifadə etməklə müəyyən edilmişdir: profilaktik işin informasiya təminatı ilə bağlı olan koqnitiv meyar, motivasiya meyarı, emosional meyar, psixoloji rahatlıq meyarı, praktik-fəaliyyətyönlü meyar. Bu meyarlar əsasında eksperimentə cəlb edilmiş məktəblər həyata keçirilmiş işlərin səmərəliliyini dəyərləndirirdilər.

10. Deviant davranışlı yuxarı sinif şagirdlərinə sosial-pedaqoji və psixoloji köməyin göstərilməsi profilaktik prosesin tərkib hissəsi olub, təhsilalanların fiziki, əqli və mənəvi-əxlaqi baxımdan formalaşdırılması üçün normal şəraiti təmin edən psixoloji-pedaqoji xarakterli tədbirlərin kompleksi kimi nəzərdən keçirilir. Təbii ki, mövcud vəziyyətdə pedaqoji kollektivin bütün üzvləri deviant davranışın qarşısının alınması prosesinin effektivliyini təmin etmək üçün müvafiq şəraitdən xəbərdar olmalıdırlar.

11. Təcrübi-eksperimental işin nəticələri irəli sürülmüş fərziyyəni təsdiqləyir və onu göstərir ki, eksperimentdə həyata keçirilən pedaqoji-psixoloji tədbirlər X-XI sinif şagirdlərinin deviant davranışının pedaqoji profilaktikası üzrə işin səmərəliliyini yüksəldir.

Tədqiqatla bağlı aşağıdakı **təklifləri** irəli sürmək mümkündür:

1. Yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası sahəsində məktəb və ailənin əməkdaşlığının təmin olunması faydalı olardı.

2. Yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası sahəsində məktəb, ailə və hüquq mühafizə orqanlarının birgə fəaliyyət göstərmələri məsləhətdir.

3. Yeniyetmələrin, həmçinin tələbələrin deviant davranışının profilaktikası sahəsində də tədqiqatların aparılması məqsədəuyğundur.

4. Uşaqların deviant davranışının profilaktikasına aid kitab və kitabçaların yazılması, respublika səviyyəli tədbirlərin, elmi-praktik konfransların müntəzəm təşkili səmərəli nəticələr verərdi.

Dissertasiyanın əsas elmi və təcrübi nəticələri aşağıdakı **elmi məqalə və konfrans materiallarında** öz əksini tapmışdır:

1. Yeniyetmə deviasiyasının xüsusiyyətləri və tipləri // - Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi Əsərləri, - 2016. № 1, - s. 197-201.

2. Qeyri-normativ davranışlı gənclərin mənəvi şüurunun və mənəvi tərbiyəsinin formalaşdırılması // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Milli-mədəni irs və onun qloballaşma şəraitində təbliği məsələləri" mövzusunda respublika elmi konfransının materialları, - Mingəçevir: Avrora, - 22 – 23 aprel, - 2016, - s. 174-176.

3. Педагогический мониторинг и оценивание как средство профилактики девиантного поведения старшеклассников // "Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları, - Bakı: ARTPİ, - 25 iyun, - 2016, - s.89-91.

4. Gənclər arasında suisid (intihar) deviant davranışın forması kimi // - Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri seriyası, - 2017. № 3, - s. 145-149.

5. Государственная политика в сфере профилактики девиантного поведения старшеклассников // - Кыргызстан: Наука, новые технологии и инновации Кыргызстана, - 2017. № 6, - с.187-190.

6. Asudə vaxtın səmərəsiz təşkili yuxarı sinif şagirdlərinin deviant davranışının səbəbi kimi // - Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2017. № 4, - s. 109-114.

7. Yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikasında müəllimin rolu // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-cü ildönümünə həsr olunmuş "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" mövzusunda respublika elmi konfransın materialları, - Bakı: ARTİ - 18 may, - 2018, - s. 214-215.

8. Yuxarı sinif şagirdlərinin deviant davranışının öyrənilməsinə dair əsas yanaşmalar // - Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, - 2018. № 2, - s. 74-81.

9. Kütləvi informasiya vasitələrinin yeniyetmə və gənclər arasında deviant davranışın formalaşmasına təsiri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, - Bakı: ADPU, - 22 – 23 noyabr, - 2018, - s. 403-405.

10. Ümumtəhsil məktəblərində sinif rəhbərinin deviant davranışlı şagirdlərlə apardığı işin əsas xüsusiyyətləri // Ümummilli lider Heydər

Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda X beynəlxalq elmi konfransın materialları, - Bakı: Mütərcim, - 7 may, - 2019, - s. 87-90.

11. Особенности работы с "трудными" детьми // Фундаментальные и прикладные научные исследования: актуальные вопросы, достижения и инновации: сборник статей XXV международной научно-практической конференции. В 2 ч. Ч. 1. - Пенза: МЦНС "Наука и просвещение", - 30 августа, - 2019, - с. 261-263.

12. Yuxarı sinif şagirdlərinin deviant davranışının meydana gəlməsinə təsir edən əsas amillər // - Gəncə: Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, - 2019. № 1, - s. 318-323.

13. Sinifdənxaric işin təşkili yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası kimi // - Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutunun Elmi əsərləri, - 2020, № 2(60), s. 46-52.

14. Yuxarı sinif şagirdlərinin yaş xüsusiyyətləri deviant davranışının yaranma səbəbi kimi // XII Международная научно-практическая конференция GLOBAL SCIENCE AND INNOVATIONS 2021: CENTRAL ASIA». V том. Нур-Султан: – 5 февраль, - 2021, - с. 10-13.

15. Opportunities of the pedagogical quartet in the prevention of deviant behavior, taking into account the pedagogical and psychological characteristics of senior students // - Kiev: Ministry of Education and Science of Ukraine National Academy of Educational Science of Ukraine State Institution of Higher Education “University of Educational Management” Bulletin of postgraduate education, collection of scientific papers Educational sciences Series”, 2021. № 16 (45), - p. 93-109.

Dissertasiyanın müdafiəsi 25 oktyabr 2022-ci il tarixində saat 14°°-da Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 68, AZ 1000.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.09.2022
Kağızın formatı: $60x84^{1/16}$
Həcm: 39674
Tiraj: 100